“Övladlarınıza yeddi yaşında ikən namaz qılmağı əmr edin, on yaşında ikən onları namaza görə (əgər qılmasalar) vurun və onların yataqlarını da ayırın”

Amr bin Şueyb, atası vasitəsilə babasından rəvayət edərək dedi: Allahın Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurdu: “Övladlarınıza yeddi yaşında ikən namaz qılmağı əmr edin, on yaşında ikən onları namaza görə (əgər qılmasalar) vurun və onların yataqlarını da ayırın”.

[Həsən] [Əbu Davud rəvayət etdi]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan etmişdir ki, ata övladlarına - oğlan və qızlara - yeddi yaşında ikən namaz qılmağı əmr etməli və onlara namaz qılmaq üçün lazım olan şeyləri öyrətməlidir. Onlar on yaşına çatdıqda bunu daha çox əmr etməlidir. Övlad bu işdə səhlənkarlıq edərsə, ata onu vurur və onların yatağını ayırır.

http://sunnah.global/hadeeth/az/show/5272